# ÜZVİ KİMYADA OKSİDLƏŞMƏ-REDUKSİYA REAKSİYALARI

**N.Ə. Əkbərov, S.Z.Abdullayeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu məqalə orta məktəb səviyyəsində üzvi kimyada rast gələn oksidləşmə-reduksiya reaksiyalarının (ORR) izahına həsr olunmuşdur. Məqalədə üzvi birləşmələrdə elementlərin oksidləşmə dərəcələrinin asan yolla təyini də öz əksini tapmışdır. Üzvi kimyada ORR–in əsas mahiyyəti izah edilmiş, ilk baxışda ORR kimi görünməyən reaksiyaların əsl həqiqətdə ORR olması sübut olunmuş və onlara aid nümunələr göstərilmişdir.

Orta məktəb dərsliklərində və ən çox istifadə olunan kimyadan dərs vəsaitlərində [1-6] üzvi kimyada oksidləşmə-reduksiya reaksiyaları barədə çox məhdud dərəcədə informasiya var. Ona görə də şagirdlərə kömək məqsədilə bu mövzuya müraciət etdik.

Üzvi kimyada da oksidləşmə dərəcəsinin dəyişməsilə gedən reaksiyalar *oksidləşmə-reduksiya reaksiyaları* adlanır. Məsələn:

$$\overset{-4}{C}H_4 + \overset{0}{Cl_2} \rightarrow \overset{-2}{C}H_3Cl + H\overset{-1}{Cl}$$

Bu reaksiyada $CH_4$ – reduksiyaedici, $Cl_2$ isə oksidləşdiricidir. Belə ki, metandakı C atomunun oksidləşmə dərəcəsi -4-dən -2-yə kimi yüksəlir, yəni o, özündən 2 elektron verərək, *oksidləşir*. Xlor molekulundakı xlor atomunun oksidləşmə dərəcəsi 0-dan -1-ə kimi azalır, yəni o, özünə 1 elektron birləşdirərək, *reduksiya olunur* (2 Cl atomu isə 2 elektron birləşdirir). Bu reaksiyanın elektron tənlikləri aşağıdakı kimi olacaq:

| | | |
|---|---|---|
| ***oksidləşdirici***: $2\overset{0}{Cl} + 2e \rightarrow \overset{-1}{Cl}$ -***reduksiya*** *prosesi* | 2 | 1 |
| ***reduksiyaedici****:* $\overset{-4}{C} - 2e \rightarrow \overset{-2}{C}$ - ***oksidləşmə*** *prosesi* | 2 | 1 |

Qeyd etmək lazımdır ki, üzvi birləşmələrdə karbon atomunun oksidləşmə dərəcəsi -4-dən +4-ə qədər hər hansı bir qiymət (hətta sıfır və kəsrli qiymət də) ala bilər. Hər hansı bir üzvi birləşmə molekulnda karbon atomları müxtəlif oksidləşmə dərəcələrinə malik olur.

Üzvi birləşmələrdə elementlərin, xüsusilə, karbon atomlarının oksidləşmə dərəcələri, adətən, maddələrin quruluş formulu yazılaraq müəyyən edilir. Məsələn, $CH_2Cl\text{-}CH(OH)\text{-}C(O)\text{-}CH_2\text{-}COOH$ birləşməsində:

1-ci Karbon atomunun oksidləşmə dərəcəsi +3

2-ci Karbon atomunun oksidləşmə dərəcəsi -2

3-cü Karbon atomunun oksidləşmə dərəcəsi +2

4-ci Karbon atomunun oksidləşmə dərəcəsi 0

5-ci Karbon atomunun oksidləşmə dərəcəsi isə -1-dir. Belə ki, molekuldakı hər bir karbon atomunun oksidləşmə dərəcəsi müəyyən edilərkən, bütün C-C rabitələri qeyri-polyar, C-E (burada E – hər hansı bir kimyəvi elementdir) rabitələri isə polyar rabitlər kimi qəbul edilir. E elementinin elektromənfiliyi C-nun elektromənfiliyi ilə müqayisə edilərək, onun oksidləşmə dərəcəsindən istifadə etməklə, birbaşa birləşdiyi karbon atomunun oksidləşmə dərəcəsi hesablanaraq müəyyən edilir. Burada, həmçinin atom və funksional qrupların –İ, -M və +İ, +M effektləri də nəzərə alınır. Məsələn:

$$\overset{-1}{C}H_2Cl-\overset{0}{C}H(OH)-\overset{+2}{C}(O)-\overset{-2}{C}H_2-\overset{+3}{C}OOH$$

Üzvi kimyadakı oksidləşmə-reduksiya reaksiyaları da qeyri-üzvi kimyadakılar kimi ümumi qayda və prinsiplərə tabedir: onların təsnifatı, reaksiya tənliklərinin əmsallaşdırılmasındakı elektron-balansı metodu və s. Lakin fərqli cəhətlər də var; belə ki, üzvi kimyadakı oksidləşmə-reduksiya proseslərinə hər şeydən əvvəl, verilmiş üzvi birləşməyə uyğun baxılır və molekulda reaksiya mərkəzi olan karbon atomunun oksidləşmə dərəcəsinin dəyişməsilə əlaqələndirilir. Bu reaksiyalar birləşmə, qopma, əvəzetmə və s.tiplər üzrə baş verə bilər. Məsələn, asetilenin hidratlaşması (Kuçerov reaksiyası) və ya onun HCl ilə birləşmə reaksiyaları ilk baxışda oksidləşmə-reduksiya reaksiyaları hesab olunmur:

$$\overset{-1}{C_2H_2} + HCl \rightarrow \overset{-1}{C_2H_3Cl} \quad \text{və ya} \quad \overset{-1}{C_2H_2} + H_2O \rightarrow \overset{-1}{C_2H_4O}$$

Əsil həqiqətdə isə bu hər iki reaksiya molekuldaxili oksidləşmə-reduksiya reaksiyalarıdır:

$$H\overset{-1}{C} \equiv \overset{-1}{C}H + HCl \rightarrow \overset{-2}{C}H_2 = \overset{0}{C}HCl$$

$1e^-$

Bu reaksiyada 1-ci karbon atomu 2-ci karbon atomuna bir elektron verir, nəticədə 1-ci və 2-ci karbon atomları arasında molekuldaxili elektron keçidi (miqrasiyası) baş verir, 1-ci karbon atomu oksidləşir (yəni reduksiyaedici kimi çıxış edir), 2-ci karbon atomu isə reduksiya olunur (yəni oksidləşdirici kimi çıxış edir). Kuçerov reaksiyasında da oxşar hadisə baş verir:

$$H\overset{-1}{C} \equiv \overset{-1}{C}H + H_2O \rightarrow \overset{-3}{C}H_3 - \overset{+1}{C}H=O$$

$2e^-$

Çox vaxt üzvi kimyada olan oksidləşmə-reduksiya reaksiyaları hidrogen və ya oksigen atomlarının substrata birləşməsi (uyğun olaraq, hidrogenləşmə və ya oksidləşmə və yanma reaksiyaları) və ya onların substratdan qopması ilə (uyğun olaraq, dehidrogenləşmə və ya deoksigenləşmə reaksiyaları) müşayət olunur.

Üzvi kimyadakı ORR-ə bir çox misallar göstərmək olar:

***I. Üzvi birləşmələrin hidrogenləşməsi*** (*ikiqat və üçqat rabitələrin hidrogenləşməsi)* – bu reaksiyalarda substrat (burada $H_2$ ilə reaksiyaya girən maddə) reduksiya olunur (oksidləşdiricidir), hidrogen (burada o, reagentdir) isə oksidləşir (reduksiyaedicidir). Bu tip reaksiyalara aiddir:

*1.Karbohidrogenlərin hidrogenləşməsi:*

*a) Alkenlərin hidrogenləşməsi.* Məsələn**:**

-2 -2 0 -3+1 -3+1

$$CH_2=CH_2 + H_2 \rightarrow CH_3-CH_3$$

Etilenin homoloqları quruluşlarından asılı olaraq, müxtəlif sürətlə hidrogenləşir. Belə ki, ikiqat rabitə yanında əvəzləyicilərin sayının artması reaksiyanın sürətini nəzərə çarpacaq dərəcədə azaldır. Etilen karbohidrogenlərinin hidrogenləşmə sürətinin azalması aşağıdakı kimidir:

$$CH_2=CH_2 > R–CH=CH_2 > RCH=CHR > R_2C=CHR > R_2C=CR_2$$

*b) Alkadienlərin hidrogenləşməsi* – $H_2$–nin qoşulmuş alkadienlərlə 1:1 mol nisbətində reaksiyası zamanı 1,2- və 1,4-vəziyyətə birləşmə məhsullarının çıxımı, əsasən, temperaturdan asılıdır. Temperatur artdıqca ($t>40^oC$) 1,4-vəziyyətə birləşmə məhsulunun çıxımı, azaldıqda ($t<0^oC$) isə 1,2-vəziyyətə birləşmə məhsulunun çıxımı artır. Məsələn:

-2 -1 -1 -2 0 -3 -1 -1 -3

$$CH_2=CH–CH=CH_2 + H_2 \rightarrow CH_3–CH=CH–CH_3; (t>40^oC)$$

*c) Alkinlərin hidrogenləşməsi.*

$$R–C\equiv C–R' \xrightarrow{H_2(Ni)} R–CH=CH–R' \xrightarrow[\text{sürətli}]{H_2(Ni)} R–CH_2–CH_2–R'$$

Asetilen asan hidrogenləşir. Platin qarası üzərində, yaxud Reney nikeli iştirakında etana çevrilmə prosesi baş verir, adi nikel üzərində, əsasən etilen alınır. Beləliklə, katalizatorun xarakterindən və alkinlərin hidrogenləşməsi prosesinin şəraitindən asılı olaraq, reaksiyanı mərhələli aparmaq olar:

0 -1 -2 -2 -3

$$RC\equiv CH \xrightarrow{+2H} RCH=CH_2 \xrightarrow{+2H} RCH_2–CH_3$$

***Lindlar*** katalizatorunun (Pd, PbO və $CaCO_3$) iştirakı ilə alkinləri alkenlərə qədər reduksiya etmək olur (üçqat rabitəyə sis-birləşmə):




*d) Tsikloalkanların hidrogenləşməsi* - üç-, dörd- və beşüzvlü tsikloalkanlar katalitik hidrogenləşir – tsikl açılır, 1 mol $H_2$ birləşir və müvafiq alkan alınır. Tsikl böyüdükcə, birləşmə çətinləşir. Tsikloheksan isə hidrogenləşdirici katalizatorlarla qızdırdıqda o, dehidrogenləşərək aromatikləşir və benzola çevrilir:










*e) Arenlərin hidrogenləşməsi* - normal təzyiqdə nikel katalizatoru üzərində benzol 200-220°C-də 80-90% tsikloheksana hidrogenləşir (reduksiya olunur – oksidləşdiricidir):

$$C_6H_6 + 3H_2 \rightleftharpoons C_6H_{12}$$

***2. Oksigenli birlşmələrin hidrogenləşməsi:***

*a) Fenolların hidrogenləşməsi:*

Fenolun katalitik hidrogenləşməsini nikel katalizatoru üzərində 180°C-də, ya da maye fazada hidrogenin təzyiqi altında həyata keçirmək mümkündür. Nəticədə tsikloheksanolla yanaşı, az miqdarda tsikloheksanon da əmələ gəlir:



*a) Aldehid və ketonların hidrogenləşməsi* - Hidrogen reduksiya reaksiyalarında oksigen saxlayan qruplarla – karbonil-, karboksil-, nitro- və s. quplarla qarşılıqlı təsirdə olur və onları reduksiya edir. *Suyun ayrılması* və *suyun ayrılmaması* ilə gedən reduksiya reaksiyaları mövcuddur. Aldehid və ketonların spirtə reduksiyası suyun *ayrılmaması* ilə gedən reduksiya reaksiyalarına aiddir:

$$R{-}CHO \xrightarrow{+2H} R{-}CH_2OH \text{ – \textit{birli spirt alınır}}$$

$$R{-}CO{-}R' \xrightarrow{+2H} R{-}CHOH{-}R' \text{ – \textit{ikili spirt alınır}}$$

Aldehid və ketonların karbohidrogenlərə qədər tam reduksiyası suyun ayrılması ilə gedir:

$$R{-}CHO \xrightarrow{+2H} R{-}CH_2OH \xrightarrow{+2H} R{-}CH_3 + H_2O$$

$$R{-}CO{-}R' \xrightarrow{+2H} R{-}CHOH{-}R' \xrightarrow{+2H} R{-}CH_2{-}R' + H_2O$$

Karboksil qrupu yüksək davamlılığa malik olduğundan, turşuların aldehidlərə qədər reduksiyasını aşağıdakı sxem üzrə həyata keçirmək praktiki olaraq mümkün deyil:

$$R{-}COOH \xrightarrow{+2H} R{-}CHO + H_2O$$

Lakin turşuların xloranhidridlərinin hidrogenlə katalitik reduksiyası mümkündür:

$$R{-}COCl \xrightarrow{+2H;\,(Pd)} R{-}CHO + HCl$$

*Buvo-Blan* metodu üzrə karbon turşularının efirlərini susuz spirtdə natriumla qaynatmaqla onları spirtə qədər reduksiya etmək olur:

$$R{-}COOC_2H_5 \xrightarrow{+4H;\,(Na+C_2H_5OH)} R{-}CH_2OH + C_2H_5OH$$

Hal-hazırda karbon turşularının, mürəkkəb efirlərin və digər karbonilli birləşmələrin kompleks hidridlərin köməyilə (litiumalüminium-hidrid $LiAlH_4$, natriumbor-hidrid $NaBH_4$, litiumbor-hidrid $LiBH_4$) yeni qeyri-katalitik reduksiya metodu geniş tətbiq olunur.

***3.Nitrillərin reduksiyası*** - nitrillərin (R–CN) reduksiyasından $RCH_2NH_2$ tipli *birli aminlər* alınır:

$$\underset{\textit{nitril}}{R{-}C{\equiv}N{+}H_2} \xrightarrow{Ni} \left[\underset{\textit{imin}}{R{-}CH{=}NH}\right] \xrightarrow[Ni]{H_2} \underset{\textit{birli amin}}{RCH_2{-}NH_2}$$

***4. Reduksiyaedici aminləşmə*** - bu prosesdə bir çox karbonilli birləşmələr aminlərə çevrilir (reduksiya ammonyakın təsiri ilə aparılır):



Əgər reaksiyada reduksiyaedici reagent kimi ammonyak götürülərsə, birli amin, birli amin götürüldükdə isə ikili amin alınır.

***5.Alkil- və arilhalogenidlərə metalların təsiri*** (bu üsul Li- və Mg-üzvi birləşmələrin, alkanların və tsikloalkanların alınmasında çox geniş tətbiq edilir):





Vürs reaksiyasında da oksidləşmə-reduksiya prosesi baş verir (bu həm də dehalogenləşmə reaksiyasıdır). Məsələn:

$$\overset{-3}{C}H_3–\overset{-1}{C}H_2Br + \overset{0}{Na} \rightarrow \overset{-3}{C}H_3–\overset{-2}{C}H_2–\overset{-2}{C}H_2–\overset{-3}{C}H_3 + \overset{+1}{Na}Br$$

***6. Üzvi birləşmələrin halogenləşməsi.*** Bu reaksiyalarda halogenlər oksidləşdirici olur.

*a) Doymuş birləşmələrin halogenləşməsi* (əvəzetmə reaksiyasıdır). Məsələn:

$$\overset{-4}{C}H_4 + \overset{0}{Br_2} \rightarrow \overset{-2}{C}H_3Br + H\overset{-1}{Br}$$

*b) Doymuş birləşmələrin halogenləşməsi* (birləşmə reaksiyasıdır). Məsələn:

$$\overset{-2}{C}H_2{=}\overset{-2}{C}H_2 + \overset{0}{Cl_2} \rightarrow \overset{-1}{C}H_2\overset{-1}{Cl}–\overset{-1}{C}H_2\overset{-1}{Cl}$$

***7. Bütün yanma və katalitik oksidləşmə reaksiyaları.*** Məsələn:

$$\overset{-3}{C}H_3–\overset{-2}{C}H_2–\overset{-2}{C}H_2–\overset{-3}{C}H_3 + \overset{0}{O_2} \rightarrow \overset{+4}{\mathbf{C}}\overset{-2}{O_2} + H_2O$$

$$\overset{-3}{C}H_3–\overset{-2}{C}H_2–\overset{-2}{C}H_2–\overset{-3}{C}H_3 + \overset{0}{O_2} \xrightarrow{kat} \overset{-3}{C}H_3\overset{+3}{\mathbf{C}}O\overset{-2}{O}H + H_2O$$

***7. Parçalanma (eliminləşmə) reaksiyaları*** da ORR sayıla bilər:

*a) dehidrogenləşmə reaksiyaları.* Məsələn:

-3 -3 -2 -2 0

$CH_3–CH_3 \rightarrow CH_2=CH_2 + H_2$

*b) dehalogenləşmə reaksiyaları.* Məsələn:

-1 -1 0 -2 -2 +1

$CH_2Cl–CH_2Cl + Na \rightarrow CH_2=CH_2 + 2NaCl$

*c) monohalogenki törəmələrin dehidrogenhalogenləşmə reaksiyaları.* Məsələn: -3 -1 -2 -2

$CH_3–CH_2Cl + NaOH \rightarrow CH_2=CH_2 + NaCl + H_2O$

Lakin dihalogenli törəmələrin dehidrogenhalogenləşmə reaksiyaları ORR deyil. Məsələn: -1 -1 -1 -1

$CH_2Cl–CH_2Cl + 2NaOH \rightarrow CH≡CH + 2NaCl + 2H_2O$

*d) dehidratlaşma reaksiyaları.* Məsələn:

-3 -1 -2 -2

$CH_3–CH_2OH \rightarrow CH_2=CH_2 + H_2O$

*e) krekinq və piroliz reaksiyaları.* Məsələn:

$C_8H_{18} \rightarrow C_4H_{10} + C_4H_8$

$CH_4 \rightarrow C_2H_2 + H_2$

*8. İzomerləşmə reaksiyaları* da molekuldaxili ORR sayıla bilər. Məsələn:

-3 -2 -2 -3 $AlCl_3$ -3 -1 -3

$CH_3–CH_2–CH_2–CH_3 \rightarrow CH_3–CH(CH_3)–CH_3$

(yan qrup $CH_3$: -3)

***9. Nitrolaşma reaksiyaları.*** Məsələn:

-3 -3 +5 -3 -1 +3

$CH_3–CH_3 + HNO_3 \rightarrow CH_3–CH_2NO_2 + H_2O$

***10. Zinin reaksiyası- nitrobirləşmələrin aminlərə reduksiyası.*** Məsələn:

+3 -2 -3 0

$C_6H_5NO_2 + H_2S \rightarrow C_6H_5NH_2 + S + H_2O$

***11. Vaqner reaksiyası*** – etilenin $KMnO_4$-ün suda məhlulu ilə oksidləşməsi:

-2 -2 +7 -1 -1 +4

$CH_2=CH_2 + KMnO_4 + H_2O \rightarrow CH_2OH–CH_2OH + MnO_2 + KOH$

Üzvi kimyada ORR-ə çoxlu sayda digər reaksiyaları da misal göstərmək olar.

## İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov V., Abbasov M.,Xanlarov T. və b. Kimya (abituriyentlər üçün dərs vəsaiti), Bakı, "Abituriyent", 2018

2.Мануйлов А. В., Родионов В. И.Основы химии. Интернет-учебник, основан в 2001 г. Последнее обновление 2017 г.

3. Кузьменко Н.Е., Еремин В.В., Попков В.А. Начала химии, Современный курс для поступающих в вузы. Т.1/ Кузьменко Н.Е. и др.-16-е изд., перераб. и доп.-М.:Экзамен, 2016

4. Рэмсден Э.Т. Начала современной химии. – Л.:Химия, 1989

5. Хомченко Г.П. Химия для поступающих в вузы.-М.: Высщая школа, 1993

6. Химия: Справочные материалы / Под ред. Ю.Д.Третьякова. 3-е изд.-М.: Просвещение, 1993.

*Н.А.Акперов, С.З.Абдуллаева*

**Окислительно-восстановительне реакции в органической химии**

**РЕЗЮМЕ**

Эта статья посвящена к объяснению окислительно-восстановительных реакций (ОВР), встречающихся в органической химии средней школы. В этой статье а также имеет места определение степени окисления элементов удобным способом в органических соединениях. Выяснено основной сушность ОВР в органической химии, доказано, что некоторые реакции не являщейся ОВР в первой взглядь, на самом деле являются ОВР, и показаны примеры по этому поводу.

*N.A. Akperov, S.Z. Abdullaeva*

**Redox reactions in organic chemistry**

**SUMMARY**

This article is devoted to the explanation of redox reactions (OVR) found in school organic chemistry. In this article, as well, a determination is made of the degree of oxidation of elements in a convenient way in organic compounds. The main dryness of OVR in organic chemistry is clarified, it is proved that some reactions that are not OVR at first glance are actually OVR, and examples are shown on this subject.

**Açar sözlər:** oksidləşdirici, reduksiyaedici, oksidləşmə prosesi, reduksiya prosesi, molekuldaxili oksidləşmə-reduksiya, molekullararası oksidləşmə-reduksiya, oksidləşmə dərəcəsi.

**Ключевые слова:** окислитель, восстановитель, процес окисления, процес восстановления, внутримолекулярная окислительно-восстановительная реакция, межмолекулярная окислительно-восстановительная реакция, степени окисления.

**Key words:** oxidizing agent, reducing agent, oxidation process, reduction process, intramolecular redox reaction, intermolecular redox reaction, oxidation state.